UOT 94 (479.24)
Əli FƏRHADOV
Milli Azərbaycan Tarixi Muzeyi,
tarix üzrə fəlsəfə doktoru, dosent
ali_farhadov@yahoo.com
https://orcid.org/0000-0002-9322-3670

MİRZƏ BALA MƏHƏMMƏDZADƏNİN YARADICILIĞINDA MİLLİ İSTİQLALA DAİR ("AZƏRBAYCAN MİSAQİ-MİLLİSİ: 28 MAY İSTİQLAL BƏYANNAMƏSİNİN TƏHLİLİ" ƏSƏRİ ƏSASINDA)

Xülasə: Görkəmli Azərbaycan ictimai-siyasi xadimi Mirzə Bala Məhəmmədzadə Azərbaycan Xalq Cümhuriyyətinə (AXC) və milli istiqlal ideyasına həsr olunmuş dəyərli əsərlər ərsəyə gətirib. Belə əsərlərdən biri də "Azərbaycan Misaqi-Millisi: 28 May İstiqlal Bəyannaməsinin təhlili"dir. Əsərin 1927-ci ildə ərəb qrafikası ilə yazılmış nüsxəsi Milli Azərbaycan Tarixi Muzeyinin kitabxanasında saxlanılır. Bu əsərində M.B.Məhəmmədzadə AXC-nin İstiqlal Bəyannaməsinin maddələrini şərh edir və Məhəmməd Əmin Rəsulzadənin rəhbərliyi altında "Müsavat" partiyasının milli istiqlala nail olunmasında oynadığı rolu ətraflı izah edir. Əsərdə həmçinin Osmanlı türklərinin Azərbaycan xalqına qardaşlıq yardımı və onun milli ədəbiyyatda əks olunması məsələlərinə də toxunulur. Bu məqalə M.B.Məhəmmədzadənin həyatı, milli istiqlal uğrunda mübarizəsi, həmçinin muzeydə saxlanılan əsərləri və onların məzmunu haqqında məlumatları özündə ehtiva edir. Bundan əlavə, həmin əsər əsasında dövrün ictimai-siyasi, ədəbi və mədəni hadisələri şərh edilir. M.B.Məhəmmədzadə, İstiqlal Bəyannaməsinin maddələrini şərh edərək, AXC-nin bütün vətəndaşlara bərabər hüquqlar verdiyini, qadınlara seçki hüququ tanıdığını və Şərqdə ilk dünyəvi, demokratik respublika olduğunu vurğulayır. O, ruhanilərin və bəzi radikal dindarların mühafizəkar mövqeyini tənqid edir, milli birliyin əhəmiyyətini, xüsusilə də sünni və şiə məzhəbləri arasındakı ixtilafların aradan qaldırılmasını müdafiə edir. M.B.Məhəmmədzadə əsərində milli azadlıq mübarizəsində maarifçi ziyalıların ədəbi fəaliyyətlərinin də roluna toxunur. Nəticə etibarı ilə, məqalə müəllifin milli istiqlal ideyasını, onun prinsiplərini, məqsədlərini və bu mübarizədə qarşılaşdığı çətinlikləri geniş şəkildə təhlil edir. Bu əsər Azərbaycanın müstəqillik tarixinin öyrənilməsi üçün əvəzsiz bir mənbədir.

Açar sözlər: Mirzə Bala Məhəmmədzadə, Azərbaycan Misaqi-Millisi, AXC, İstiqlal Bəyannaməsi

Ali FARHADOV

ON NATİONAL INDEPENDENCE IN THE WORKS OF MİRZA BALA MAMMADZADEH (BASED ON THE WORK "THE NATIONAL PACT OF AZERBAIJAN: AN ANALYSIS OF THE DECLARATION OF THE INDEPENDENCE OF MAY 28")

Abstract: Mirza Bala Mammadzadeh, a prominent Azerbaijani public and political figure, left valuable works dedicated to the Azerbaijan Democratic Republic (ADR) and the idea of national independence**.** One such work is "The National Pact of Azerbaijan: An Analysis of the Declaration of Independence of May 28". A copy of the 1927 edition, written in Arabic script, is preserved in the library of the National Museum of History of Azerbaijan. In this work, M.B.Mammadzadeh comments on the articles of the ADR's Declaration of Independence and thoroughly explains the role of the Musavat party, led by M.E.Rasulzade, in achieving national independence. The work also sheds light on the fraternal assistance of the Ottoman Turks to the Azerbaijani people and its reflection in national literature. The presented article provides information about M.B. Mammadzadeh's life, his struggle for national independence, and his works preserved in the museum, including their content. Furthermore, based on this work, the socio-political, literary, and cultural events of that period are interpreted. Commenting on the

articles of the Declaration of Independence, M.B.Mammadzadeh emphasizes that the Azerbaijan Democratic Republic granted equal rights to all citizens, including the right to vote for women, and became the first secular, democratic republic in the East. He criticizes the conservative stance of the clergy and some radical religious figures, advocating for the importance of national unity and overcoming the differences between Sunnis and Shiites. In his work, M.B.Mammadzadeh also touches upon the role of enlightened intellectuals and their literary activities in the national liberation struggle. As a result, the article provides a comprehensive analysis of the idea of national independence, its principles, and goals, as well as the difficulties encountered by those involved in this struggle. This work is an invaluable source for studying the history of Azerbaijan's independence.

Keywords: Mirza Bala Mammadzadeh, National Pact of Azerbaijan, ADR, Declaration of Independence

Али ФАРХАДОВ

О НАЦИОНАЛЬНОЙ НЕЗАВИСИМОСТИ В ТВОРЧЕСТВЕ МИРЗЫ БАЛЫ МАМЕДЗАДЕ (НА ОСНОВЕ РАБОТЫ «НАЦИОНАЛЬНЫЙ ПАКТ АЗЕРБАЙДЖАНА: АНАЛИЗ ДЕКЛАРАЦИИ НЕЗАВИСИМОСТИ ОТ 28 МАЯ»)

Абстракт: Мирза Бала Мамедзаде, выдающийся азербайджанский общественно-политический деятель, оставил ценные труды, посвященные Азербайджанской Демократической Республике (АДР) и идее национальной независимости. Одним из таких произведений является «Национальный пакт Азербайджана: анализ Декларации независимости от 28 мая». Копия издания 1927 года, написанная арабской графикой, хранится в библиотеке Национального музея истории Азербайджана. В этом труде М.Б.Мамедзаде комментирует статьи Декларации независимости АДР и подробно разъясняет роль партии «Мусават» под руководством М.Э.Расулзаде в достижении национальной независимости. В работе также освещается братская помощь тюрок-османов азербайджанскому народу и её отражение в национальной литературе. Представленная статья содержит информацию о жизни М.Б.Мамедзаде, его борьбе за национальную независимость, а также о хранящихся в музее работах и их содержании. Кроме того, на основе этого труда интерпретируются общественно-политические, литературные и культурные события того периода. М.Б.Мамедзаде, комментируя статьи Декларации независимости АДР, подчёркивает, что Азербайджанская Демократическая Республика предоставила равные права всем гражданам, включая избирательное право для женщин, и стала первой светской, демократической республикой на Востоке. Он критикует консервативную позицию духовенства и некоторых радикальных религиозных деятелей, выступая за важность национального единства и преодоление разногласий между суннитами и шиитами. В своей работе М.Б.Мамедзаде также затрагивает роль просветительских деятелей и их литературной деятельности в национально-освободительной борьбе. Таким образом, статья представляет собой всесторонний анализ идеи национальной независимости, её принципов и целей, а также трудностей, с которыми столкнулись участники этой борьбы. Эта работа является бесценным источником для изучения истории независимости Азербайджана.

Ключевые слова*:* Мирза Бала Мамедзаде, Национальный пакт Азербайджана, АДР, Декларация независимости

Giriş

Məqalədə görkəmli ictimai-siyasi xadim Mirzə Bala Məhəmmədzadənin (1898-1959) Milli Azərbaycan Tarixi Muzeyinin kitabxanasında qorunan “Azərbaycan Misaqi-Millisi: 28 may İstiqlal Bəyannaməsinin təhlili” əsərinin surəti [8] əsasında müəllifin milli istiqlal mövzusundakı fikirləri, dövrün ictimai-siyasi, ədəbi-mədəni hadisələrinə baxışı təqdim olunur. Kitabın orijinalı 1927-ci ildə İstanbulda nəşr edilmişdir və 54 səhifədir. Məqalədə istifadə edilən nüsxə muzeyin

kitabxanasındakı nüsxə olub 51 səhifədən ibarətdir və son üç səhifəsi əskikdir. Muzeyin Sənədli mənbələr fondunda isə kitabın sadəcə 52-ci və 53-cü səhifələrinin surəti qorunur [9, s.52-53].

Məqalədə mövzu ilə bağlı M.B.Məhəmmədzadənin digər əsərlərindən, o cümlədən, müxtəlif ədəbiyyatlardan - o cümlədən, A.Askerin, İ.Türkoğlunun, S.Mehralıyevanın və s. müəlliflərin müvafiq əsərlərindən istifadə edilmişdir. M.B.Məhəmmədzadənin 2023-cü ildə Bakıda nəşr edilmiş "Seçilmiş əsərləri"ndə onun "Azərbaycan Misaqi-Millisi: 28 may İstiqlal Bəyannaməsinin təhlili" əsəri təqdim edilsə də, onun Ankarada nəşr olunmuş 2022-ci il türkcə nüsxəsindən istifadə edilmişdir [8, s.25]. Təqdim etdiyimiz məqalə isə M.B.Məhəmmədzadənin qeyd olunan əsərinin 1927-ci ildə İstanbulda ərəb əlifbası ilə nəşr edilmiş nüsxəsi əsasında hazırlanmışdır.

Mirzə Bala Məhəmmədzadənin həyatı və əsərləri

M.B.Məhəmmədzadə Abşeron rayonunun Zirə kəndində anadan olmuş, Bakıda rus-tatar məktəbində təhsil almışdır. O, Bakı Politexnik Məktəbindən inşaat-memarlıq ixtisası üzrə məzun olmuşdur [4, s.6]. M.B.Məhəmmədzadə tələbəlik illərində M.Ə.Rəsulzadənin nəşr etdiyi "Açıq söz" qəzetində işləmiş və yazmış, 1917-ci ildə Müsavat Partiyasına üzv olmuşdur. M.B.Məhəmmədzadə 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti qurulduqdan sonra respublikanın müxtəlif orqanlarında, o cümlədən parlamentdə stenoqrafçı kimi çalışmış [4, s.9] və Müsavat Partiyasının Bakı komitəsinin üzvü seçilmişdir. Eyni zamanda "Bəsirət", Azərbaycan" və s. mətbuat orqanlarında müxbir və yazar olaraq çalışmışdır.

M.B.Məhəmmədzadə AXC-nin süqutundan sonra işğala qarşı yaradılmış Milli Müqavimət Komitəsinin sədri olmuş, komitənin "İstiqlal" qəzetində Rusiya işğalına qarşı yazılar yazdığına görə bir müddət həbs edilsə də, İrana qaça bilmişdi. M.B.Məhəmmədzadə bir müddət Rəştdə və Tehranda yaşamış, daha sonra Rusiyanın İrana təzyiqləri səbəbilə 1926-cı ildə Türkiyəyə mühacirətə getmiş və İstanbul Universitetində hüquq təhsili almışdır [13, s.271-272]. Dövrün sovet qaynaqları hər nə qədər 28 aprel işğalını Azərbaycan zəhmətkeşlərinin sovetləri dəstəkləməsi və inqilab kimi dəyərləndirsələr də, M.B.Məhəmmədzadə bu dövrü "qatı ÇEKA (sovet xüsusi xidmət orqanı-Ə.F.) istibdadı" adlandırmış və hadisənin işğal olduğunu bildirmişdir [8, s.5].

M.B.Məhəmmədzadə İstanbulda tələbə ikən azərbaycanlı mühacirlərin nəşr etdiyi "Yeni Kafkasya" jurnalında məqalələr yazıb, M.Ə.Rəsulzadə və M.Sadıq ilə "Azəri Türk" jurnalını, daha sonra "Odlu yurd" jurnalını nəşr etmişdir. Bu jurnallarda o, Azərbaycanda və Rusiyada yaşayan müsəlman türklərin tarixi və siyasətlə bağlı məqalələr yazırdı. Lakin onun Rusiya əleyhinə yazıları, o cümlədən, Türkiyəyə sığınan mühacirlərin fəaliyyəti Rusiya ilə Türkiyə arasında siyasi ziddiyyətə səbəb olmuş, nəticədə digər mühacirlərlə birlikdə M.B.Məhəmmədzadə də Türkiyəni tərk etməyə məcbur olmuşdu. O, bir müddət Varşavada yaşamış və Berlində nəşr olunan "İstiqlal" və "Qurtuluş" jurnallarında məqalələr yazmışdır [13, s.271-272].

1939-cu ildə Almaniya Polşanı işğal edəndə M.B.Məhəmmədzadə İstanbula qayıtmış və Türkiyənin Milli Təhsil Nazirliyinin nəşr etdiyi İslam Ensiklopediyasında müəllif kimi çalışıb, burada türk dünyası ilə bağlı məqalələr yazmışdır. O, 1947-ci ildə M.Ə.Rəsulzadə ilə birlikdə Azərbaycan Kültür Dərnəyinin yaradılmasında əsas rol oynayıb, 1955-ci ildə M.Ə.Rəsulzadənin vəfatından sonra Müsavat Partiyasının və Azərbaycan Milli Mərkəzinin rəhbəri seçilmişdir. M.B.Məhəmmədzadə Almaniyada yerləşən Sovet İttifaqını Öyrənmə İnstitutunun dəvəti ilə Münhenə getmiş, burada bir müddət institutun rəhbərlərindən biri olmuş, institutun türk dilində nəşr etdiyi "Dergi" adlı jurnalda V.Nuhoğlu adı ilə bir sıra məqalələr yazmışdır [13, s.271-272].

Başda Azərbaycan mövzusu olmaq üzrə türk dünyası haqqında yüzlərlə məqalə yazan M.B.Məhəmmədzadə Rusiya işğalına qarşı türk xalqlarının milli mübarizəsinin əsas müdafiəçilərindən biri olmuşdur. O, "Komünizmle mücadele", "Türk yurdu", "Milliyet", "Cumhuriyet" və s. mətbu orqanlarındakı yazılarında Mirza Bala, V.Nuhoğlu, Daşdemir, M.B.Ali Kutluk kimi adlardan istifadə etmişdir [13, s.271-272].

M.B.Məhəmmədzadənin 1905-1917-ci illər Rusiya inqilabları dövründə Azərbaycanda baş verən ictimai-siyasi hadisələrdən bəhs edən "İki inqilab arasında", 15 sentyabr 1918-ci ildə Qafqaz İslam Ordusunun Bakını işğaldan azad etməsindən bəhs edən "Bakı uğrunda mücadilə", 1875-1922-ci illərdə Azərbaycanda və Gürcüstanda türkcə nəşr olunan nəşrlər haqqında məlumat verdiyi "Azərbaycan türk mətbuatı", 28 may 1918-ci ildə qalib gəlmiş milli istiqlaldan və bolşeviklərə qarşı mübarizəsindən bəhs edən "Azərbaycan Misaqi-Millisi: 28 may İstiqlal Bəyannaməsinin təhlili", İran ermənilərinin müsəlmanlar əleyhinə fəaliyyətindən bəhs edən "Ermənilər və İran", AXC-dən bəhs edən "Milli Azərbaycan hərəkatı", "Azərbaycan tarixində türk Albaniyası" kimi əsərləri var.

M.B.Məhəmmədzadə öz əsərlərində milli mübarizənin problemlərini tədqiq edərək tarixçi mövqeyi ilə hadisələrə yanaşmışdır. Onun Azərbaycan Xalq Cümhuriyyətinin tarixi ilə bağlı "İflas nədən oldu", "Azərbaycan parlamentosu, "Azərbaycanın Milli Şurası", "Azərbaycan Universiteti" adlı məqalələri Şərqdə ilk respublika olan Cümhuriyyət tarixini və həmin dövrün siyasi proseslərini öyrənmək baxımından dəyərli mənbələrdir. O, "Bolşeviklər və daşnaklar" adlı məqaləsində AXC-yə qarşı mübarizədə bolşevik – daşnak ittifaqını xüsusi qeyd etmişdir [12, s.2935, 2939].

Milli dövləti mədəni inkişafın ən yüksək forması sayan M.B.Məhəmmədzadəyə görə, türk-islam aləmində ilk demokratik dövlətin – AXC-nin yaranması ilə nəticələnən milli hərəkatda M.F.Axundzadədən, H.Zərdabidən, İ.Qaspralıdan Ə.Hüseynzadəyə, Ə.Ağaoğluya, M.Ə.Rəsulzadəyə qədər hər kəsin müəyyən bir rolu vardır [4, s.25].

Mirzə Bala Məhəmmədzadə və "Azərbaycan Misaqi-Millisi: 28 may İstiqlal Bəyannaməsinin təhlili" adlı əsəri

M.B.Məhəmmədzadənin "Azərbaycan Misaqi-Millisi: 28 may İstiqlal Bəyannaməsinin təhlili" adlı əsəri Azərbaycan milli hərəkatının tədqiqi baxımından mühüm yer tutur. AXC-nin İstiqlal Bəyannaməsini "Misaqi-Milli" ("Milli müqavilə") adlandıran müəllifə görə, bu ideya və üçrəngli Azərbaycan bayrağı milli məfkurəni təmsil etdiyi üçün müqəddəsdir [8, s.5-6].

"Azərbaycan Misaqi-Millisi" "Azəri gəncliyi" adlı gizli təşkilat tərəfindən 1923-cü ilin may ayında nəşr edilmişdir. Bu bəyannamə milli məfkurə uğrunda azəri türk millətpərvərlərinin mücadiləsinin başlanğıcı sayılır [8, s.3]. M.B.Məhəmmədzadə göstərir ki, 1918-ci ilin mart faciəsi Azərbaycan istiqlal məfkurəsi reallaşmasın deyə qəsdən tərtib edilmişdir. Lakin irtica qüvvələrinin zərbələri milli hərəkatın əzmini daha da artırdı, azərbaycanlıların "muxtariyyət və federasiya" arzusu "milli istiqlal" arzusuna döndü və bu uğurda mücadilə başladı [8, s.3-4]. Bunun qarşısında əsas maneələrdən biri isə "bolşevik-daşnak" işğalı idi [8, s.46]. Şair Əli Yusifin ifadəsilə "Şərqin Kəbəsi" adlanan Azərbaycanın xilaskarı isə qardaş Osmanlı türklərinin göndərdiyi Qafqaz İslam Ordusu oldu [4, s.362]. M.B.Məhəmmədzadə hələ Rusiya işğalı dövründə zalım çarizm məmurlarına və daşnak terroruna, "müsəlman qövmlərinin tənəzzülünə" qarşı mübarizədə Ə.Ağaoğlunun elmi-publisistik, ictimai-siyasi fəaliyyətinə, xüsusilə Difai Partiyasının roluna xüsusi əhəmiyyət vermişdir [11, s.35].

M.B.Məhəmmədzadə göstərir ki, Azərbaycanın istiqlalı 1918-ci ilə qədər təkcə Müsavat Partiyasının qayəsi idi, mart faciəsindən sonra isə o, Milli Şuranın elan etdiyi və xalqımızın inandığı milli bir məfkurəyə çevrildi [8, s.5]. Müəllifə görə, milli istiqlalı olmayan bir millət öz mədəniyyətini qoruya bilməz. Buna görə də ən təbii hökumət milli hökumətdir [8, s.8-9]. Bu ideyanın əsas hərəkətverici qüvvəsi olan Müsavat Partiyasının Proqramına görə millət mexaniki surətdə toplanmış insanlardan ibarət bir kütlə deyil, əksinə müştərək arzusu, dil birliyi, ortaq tarixi, ədəbiyyatı, mədəniyyəti, adət-ənənəsi olan bir cəmiyyətdir [8, s.10]. AXC-nin yaradılma qayəsi də bu müqəddəs milli məfkurə olmuşdur.

İstiqlal Bəyannaməsinin I maddəsini şərh edən M.B.Məhəmmədzadə göstərir ki, Milli Şura vasitəsilə müstəqil dövlət olduğunu elan edən Azərbaycan xalqı türklüyünü və azərbaycanlılığını dərk etmədən bu qərara gələ bilməzdi. Milli Şurada bu qərarın bayraqdarı azəri-türk millətpərvərliyini təşkil edən Müsavat Partiyası olmuşdur [8, s.8]. Bu prosesə gedən yolda Rusiya

türklərinin milli şüurunun oyanmasında, bütün türk xalqlarını vahid bir türk dili ətrafında birləşdirməyə çalışan İ.Qaspralıya və onun nəşr etdiyi "Tərcüman" qəzetinə, onun milli təhsil sahəsində ortaya qoyduğu "üsuli-cədid" (yeni metod-Ə.F.) məktəblərinə, bu cərəyanın Azərbaycanda da yayılmasına M.B.Məhəmmədzadə böyük əhəmiyyət və dəyər vermişdir [11, s.15-16]. O, Ə.Hüseynzadənin "türkləşmək, islamlaşmaq və avropalılaşmaq" şüarı ilə türklüyün gələcək hədəflərini ortaya qoyduğunu göstərir, bu ideyanın Müsavat Partiyasının şüarı və AXC-nin Dövlət Bayrağının əsasını təşkil etdiyini vurğulayırdı [11, s.16]. Azərbaycanda türk-islam mədəniyyətinin inkişafında, Ə.Hüseynzadə, Ə.Ağaoğlu kimi ziyalıların maliyyə olaraq dəstəklənməsində, "Həyat", "Füyuzat", "Kaspi" kimi mətbu orqanlarının nəşrində görkəmli xeyriyyəçi H.Z.Tağıyevin mühüm rolu M.B.Məhəmmədzadə tərəfindən vurğulanmışdır [11, s.35].

M.B.Məhəmmədzadə Azərbaycanda müsəlmançılıq şüurundan milli şüura keçişdə, milli məfkurənin formalaşmasında Müsavat Partiyasının rəhbəri M.Ə.Rəsulzadənin daha mühüm rol oynadığını qeyd edir. M.B.Məhəmmədzadə yazır ki, azəri millətpərvərlərinin rəhbəri M.Ə.Rəsulzadə 1905-ci ildən bəri milli şüurun elmi prinsiplərini "Dirilik", "Şəlalə" jurnallarında, "Açıq söz", "Təkamül", "Müsavat" qəzetlərində ortaya qoyaraq milli məfkurəni formalaşdırdı. O, "Dirilik"dəki "Milli dirilik" məqalələri, "Şəlalə"də "Dil-ictimai bir amil", "Yeni lisançılar və türkçülər", "Sadə türkcə" ətrafında yazılan elmi məqalələri, "Açıq söz"də "türkləşmək, müasirləşmək, islamlaşmaq" şüarının izahı haqqındakı fikirləri ilə müasir millət nəzəriyyəsini inkişaf etdirdi, Azərbaycanda türklük şüurunun qələbə çalmasına nail oldu [8, s.10].

M.B.Məhəmmədzadə göstərir ki, M.Ə.Rəsulzadə C.Əfqaninin – müsəlmanlar müxtəlif millətlərdən ibarətdir, bu millətlər öz milli dövlətlərini qurub, daha sonra bir federasiyada birləşməlidirlər, fikrinə əsaslanaraq bu ideyanı daha da inkişaf etdirdi. M.Ə.Rəsulzadə yazırdı ki, insanlıq naminə biz razı ola bilmərik ki, bir millət başqa bir millətə zülm etsin, bütün millətlər bərabər hüquqda olmalıdır [8, s.25-26].

İstiqlal Bəyannaməsinin II, IV və V maddələrini, yəni AXC dövründə millət, din, sinif, cins fərqi olmadan bütün vətəndaşlara bərabər hüquq verildiyini və onlar tərəfindən seçkili cümhuriyyət sistemini şərh edən M.B.Məhəmmədzadə göstərir ki, Azərbaycanda demokratik respublika idarə formasıdır. Dövləti idarə edən Milli Şura demokratik bir məclis idi, millətin bütün siniflərinin, zümrələrinin, qadın-kişi fərqi olmadan sərbəst iştirakı ilə demokratik seçkiyə əsaslanan bir müəssisə idi [8, s.18]. Müəllif qeyd edir ki, İstiqlal Bəyannaməsi ilə qadın-kişi bərabərliyi ortaya qoyularaq "cins fərqi gözləmədən" ifadəsilə Şərqdə yeni bir mədəni inqilab reallaşmışdır [8, s.33]. M.B.Məhəmmədzadə göstərirdi ki, bu mütərəqqi hadisənin başlanğıcı olaraq Rusiya fevral inqilabından sonra islamçıların təzyiq və təhqirlərinə baxmayaraq məhz Müsavat Partiyasının təşviqi ilə Azərbaycan qadınları Duma seçkilərində aktiv iştirak edərək müsəlman deputatların daha çox seçilməsinə nail oldular [8, s.41-42]. AXC ilə müsəlman Şərq dünyasında ilk dünyəvi dövlətçilik modeli ortaya qoyulmuşdur. Ona görə, demokratiyanın din və vicdan azadlığı prinsipinin tətbiqi ilə milli hakimiyyət yaradıldı. Lakin islam dini də rədd edilmir, dövlət bayrağında ortaya qoyulduğu kimi - türkləşməkdən sonra islamlaşmaq şüarı siyasi olmamaq şərti ilə qəbul edilmişdi [8, s.32]. Bunun reallaşmasında islamçıların əksinə olaraq "ruhaniləri siyasətə qarışdırmayın" deyən M.Ə.Rəsulzadə mühüm rol oynamışdır [1, s.7].

M.B.Məhəmmədzadə milli dövlətçiliyin qurulmasında əsas rolun müsavatçılarda olduğunu qeyd edir və yazırdı ki, millət sözünün müsəlmanlıq kimi anlayan ruhani-mülkədarlar xalqı çoban və qoyun kimi iki sinifə ayırıb hakimiyyəti yalnız Allah tərəfindən seçilmiş çobanlara, yəni ali ruhani-mülkədarlara xas bir imtiyaz sayırdılar. Milli Şurada ruhanilərə və feodallara əsaslanan İttihadi-islam partiyası və milliliyi yox, beynəlmiləlçiliyi müdafiə edən sosialist qrupları olsa da, əksəriyyət millətpərvər demokrat müsavatçılardan ibarət idi [8, s.18-19]. Ə.Ağaoğlu, M.Pişnamazzadə, Q.Qarabəyov kimi osmanlıpərəst, islamçı ziyalılar da ilk dövrlərdə cümhuriyyətçiliyə, dünyəvi dövlətçiliyə qarşı çıxış edirdilər. M.Ə.Rəsulzadə qeyd edirdi ki, bir tərəfdən islamçılar bizi islam birliyinə xəyanətdə, digər tərəfdən isə sosialistlər bizi sosializm ideyasına zidd getməkdə ittiham edirdilər [2].

M.B.Məhəmmədzadə xalqı parçalayan din və məzhəb ixtilafını tənqid edir, göstərirdi ki, vahid bir milləti iki düşmən qismə bölən sünni və şiə mücadiləsidir. Bu ixtilaf aradan qalxmalıdır.

Lakin bu uğurda mücadilə, məzhəb ixtilafına qarşı mübarizə, milli mətbuat, milli məktəb, üsuli-cədid üzrə tədris, bütün yeniliklər mürtəcelərin hücumuna məruz qalmışdı. Xarici istismarçılar, mürtəcelərin başında duran ruhanilər, mollalar yenilikçi millətpərvərlərə qarşı çıxırdılar. "Molla Nəsrəddin" və s. mütərəqqi ziyalılar buna qarşı mübarizə edirdilər [8, s.14-15]. Təəssüf ki, M.B.Məhəmmədzadə bu fikirlərini ortaya qoyarkən bir qədər subyektiv hərəkət edərək, mənfi ruhani obrazı yaradaraq ümumiləşdirmə etmişdir. O, məzhəbçiliyə, dində ixtilafa, uydurmalara qarşı çıxan, kişi və qadınların dünyəvi təhsil almasını müdafiə edən, elm və dini vəhdətdə görmək istəyən, ərəb dilini bilməyən azərbaycanlılar üçün ana dilində yazdığı ilk Quran təfsiri olan "Kəşfül-həqayiq" əsərində milli və dini maarifçiliyi təbliğ edən Bakı qazısı M.K. əl-Bakuvi kimi ruhanilərin mütərəqqi fəaliyyətlərini qeyd etməmişdir. Əsərdə İraqda və Şamda ali dini təhsil almış şair S.Ə.Şirvaninin məzhəbçiliyə qarşı mübarizə apardığı qeyd edilsə də, onun dini maarifçi fikirləri təqdim edilməmişdir. Həmçinin ruhanilərdən "İslamın təfriqəsi səbəbləri" əsərinin müəllifi Əbu Turab Axundzadənin adı sadəcə qeyd edilmiş, onun məzhəbçiliyə qarşı mübarizə apardığı, lakin millilikdən uzaq olduğu göstərilmişdir [8, s.31].

M.B.Məhəmmədzadə yazırdı ki, Müsavat partiyası istiqlalçı, millətçi, türkçü və mədəniyyətcə turançı, müsəlman bir partiya idi. Lakin bu partiya ittihadi-islamı yox, ittifaqi-islamı təbliğ edirdi. Bütün islam dövlətlərinin və türk dövlətlərinin bir dövlətdə birləşməsini yox, ittifaqını, dünya federasiyasına gedən yolda bir federasiya daxilində müstəqil olmasını arzu edirdi. Ona görə Turan və islam birliyi dinə yox, mədəni birliyə əsaslanmalıdır [8, s.24-26]. Mütəfəkkirə görə vahid bir dövlətə əsaslanan siyasi turançılıq və ya islam birliyi mexaniki şəkildə millətlərin birliyinə əsaslana bilməz, bu, imkansız bir xəyaldır. Yeganə yol milli istiqlal və türk-islam xalqlarının mədəni birliyidir [6, s.14].

Milli istiqlala gedən yolda Azərbaycanda Rusiyaya meyilli bolşevik və sosialistlər, o cümlədən dini siyasətə əsaslanan ittihadi-islam cərəyanları güclənmişdi və M.B.Məhəmmədzadə göstərir ki, bunlar milli istiqlala qarşı olduğu üçün onlara qarşı mücadilə etmək vacib idi. Onlar xalqı öz tərəfinə çəkməyə çalışırdılar. Bunlara qarşı mübarizəni aparan əsas qüvvə Müsavat Partiyası idi. Onun hədəfi millətçilik, türklüyü mühafizə və Azərbaycanın istiqlalı idi [8, s.47-48].

M.B.Məhəmmədzadə bolşevikləri və milli istiqlala qarşı olan digər qrupları tənqid edərək yazırdı ki, milli istiqlalı xan və bəylərin intriqası sayan düşmənlərimiz demokratik cümhuriyyətimizi Müsavat Partiyasının şəxsi arzusu saya bilərlər. Lakin bu istiqlal fikrini və milli hərəkatı, Müsavat Partiyasını yaradan Azərbaycan xalqının özü idi [8, s.24].

İstiqlal bəyannaməsinin VI maddəsini, yəni Azərbaycanda xalqın seçdiyi Milli Şura və ona tabe olan hökumət sistemini şərh edən M.B.Məhəmmədzadə yazırdı ki, cümhuriyyəti qurucuları bu xüsusda ancaq demokratiyanı və milli iradəni, parlamentarizmi əsas saymış, seçilmiş Milli Şuradan başqa ikinci hakim iradə qəbul edilməmişdir. Azərbaycan Cümhuriyyəti konstitusiya ilə idarə olunan dövlətlərdə olduğu kimi bütün vətəndaşların hüquq bərabərliyinə əsaslanırdı [8, s.44-45]. AXC-nin konstitusiyasının qəbul edilməsi hərbi-siyasi səbəblərdən sonrakı dövrə saxlansa da, İstiqlal Bəyannaməsi demokratik bir konstitusiyanın əsas müddəalarını özündə ehtiva etmişdi. AXC-nin İstiqlal Bəyannaməsinin II maddəsində göstərildiyi kimi o, bütün qonşuları ilə sülh və mehriban qonşuluq prinsipi ilə fəaliyyət göstərirdi [8, s.24-25]. Lakin keçmiş çar Rusiyasının sərhədlərini bərpa etməyi qarşısına məqsəd qoymuş olan bolşeviklər bu yeni dövlətin yaşamasına imkan vermədilər və Şimali Azərbaycanı işğal etməklə yanaşı erməni millətçilərindən istifadə edərək bölgədə separatçılığa da münbit şərait yaratdılar. M.B.Məhəmmədzadə erməni millətçilərinin nəinki Şimali Azərbaycanda, hətta İran Azərbaycanındakı separatçılıq hərəkətlərini də tənqid edirdi. O, ermənilərin İran Azərbaycanında muxtariyyət və ya yerli özünüidarəetmə haqqı arzusuna təbrizli ictimai-siyasi xadim S.H.Tağızadənin mənfi cavab verdiyini və konstitusiyada azsaylı xalqlara, etnik azlıqlara yerli özünüidarəetmə haqqının verilməyəcəyini dediyini göstərirdi [10, s.16]. Şimali Azərbaycanda ermənilərə bu haqqın verilməsi ilə ölkədə on illərlə davam edən işğalçılıq siyasətinin təməlinin qoyulması M.B.Məhəmmədzadənin və S.H.Tağızadənin mövqeyinin nə qədər doğru olduğunu göstərdi.

28 Aprel işğalı nəticəsində məhv edilən milli dövlətçiliyimizin yenidən bərpasının zəruriliyini vurğulayan M.B.Məhəmmədzadə yazırdı ki, milli istiqlal və Azərbaycan dövlətçiliyi

yenidən bərpa edilməzsə, Azərbaycan bir coğrafiya olaraq da məhv olacaq, Azərbaycan türkləri əcnəbiləşəcəkdir. Xilas yolumuz və ehtiyacımız Misaqi-Millinin yenidən hakim olmasıdır [4, s.362-363].

M.B.Məhəmmədzadə "Azərbaycan Misaqi-Millisi: 28 may İstiqlal Bəyannaməsinin təhlili" əsərində şair və ədiblərin, yazarların Azərbaycan istiqlalında oynadığı rol haqqında geniş məlumat vermişdir. Məqalədə M.F.Axundzadənin, H.Zərdabinin, H.Cavidin və digər ziyalıların yaradıcılıqlarındakı milli ideyalara xüsusi yer verilmişdir. Müəllif qeyd edir ki, H.Zərdabi Azərbaycan dilində ilk teatr əsərlərini yazan M.F.Axundzadədən ilham alaraq milli mədəniyyətimizi və elmi dünyagörüşünü təbliğ edirdi. Onun illər əvvəl təbliğ etdiyi milli və dini maarifçiliyin, xeyriyyəçiliyin əhəmiyyəti barədəki fikirləri Azərbaycanda cəhalət səddini dağıtmağa başlamışdı [8, s.16]. M.B.Məhəmmədzadə "Bizi puç etdi sünni, şiə sözü" deyərək məzhəbçiliyə qarşı mübarizə aparan S.Ə.Şirvaninin H.Zərdabinin maarifçi fikirlərini dəstəklədiyini göstərirdi [8, s.30-31]. M.B.Məhəmmədzadə milli istiqlal fikrinin formalaşmasında H.Zərdabinin "Əkinçi" qəzetinin mühüm rol oynadığını göstərir və vurğulayır ki, əgər H.Zərdabi 50 il sonra dünyaya gəlsəydi, istiqlal fikri, Misaqi-Milli 50 il sonra reallaşacaqdı [8, s.7-8].

M.B.Məhəmmədzadə milli istiqlal üçün dini vəhdətin əhəmiyyətini çox gözəl anlayır və bunu təbliğ edirdi. O, Abdulla Şaiqin müsəlmanları vəhdətə çağıran -

"Tərk edək cümlə məzahib söhbətin...
Tanrı bir, peyğəmbərü Quran bir" [8, s.30]

şerini nümunə verərək məzhəbçiliyin milli birliyə ən böyük əngəllərdən biri olduğunu göstərirdi.

M.B.Məhəmmədzadə 1917-ci ilin aprel ayında Bakıda keçirilmiş Qafqaz müsəlmanlarının qurultayında sünni və şiə ruhanilərinin ittifaq qurmasını alqışlayır və bu dini birlik ideyasının cümhuriyyət dövründə davam etdirildiyini göstərirdi [8, s.29]. Həqiqətən də İstiqlal Bəyannaməsinin IV maddəsi və cümhuriyyət dövründə şiə və sünni ruhani idarələrinin vahid bir dini idarədə - "Məşixət"də birləşdirilməsi AXC hökumətinin dini vəhdət siyasətindəki ən böyük uğurlarından biridir. Lakin M.B.Məhəmmədzadə ruhanilərin qadın azadlığına qarşı çıxdığını yenə Qafqaz müsəlmanları qurultayındakı ruhanilərin nümunəsi ilə göstərir və bu azadlığın ancaq dünyəvi dövlət quran və qadınlara kişilərlə bərabər hüquqlar verən AXC dövlətinin töhfəsi olduğunu göstərirdi [8, s.42]. Bu qurultayda Şəfiqə Əfəndizadə və digər bəzi maarifçi qadınların çadrasız olaraq kişilərin qarşısında çıxış etməsi radikal ruhanilərin hiddətinə səbəb olmuş, onlar bu hadisəni şəriətə zidd saymışdılar [5]. Bu ruhaniləri tənqid edən M.B.Məhəmmədzadə yazır ki, Milli Şura da öz İstiqlal Bəyannaməsində qadınlara kişilərlə bərabər hüquq və azadlığı verərək milli müqəddəratda mühüm rol oynadı. Bu bəyannamə bütün azəri qadınlarının Misaqi-Millisi oldu. Azəri qadınlar öz hüquq və azadlıqlarını tam əldə edərək bütün idarələrdə çalışa bilərdilər, hətta parlamentdə məmur kimi də fəaliyyət göstərirdilər. Qadınlar üçün ibtidai, orta və ali məktəblər açılmışdı, universitetdə ali təhsil ala bilirdilər [8, s.42-43]. Təbii ki, bu prosesdə M.B.Məhəmmədzadənin də qeyd etdiyi kimi uzun illər boyu qadın hüquqlarını təbliğ edən "Molla Nəsrəddin" jurnalının, "İqbal" qəzetinin, Müsavat Partiyasının böyük rolu olmuşdur. Çadraya qarşı mübarizəni "rəzalət" adlandıran, islama zidd olduğunu deyən "Şəlalə" jurnalının baş redaktoru Xalid Xürrəm Səbribəyzadənin, islamçıların və digər radikal dindarların təzyiqlərinə baxmayaraq qadınlar öz layiq olduqları haqları əldə etdilər. Bunda isə müsavatçıların və AXC dövlətinin böyük rolu oldu [8, s.38-40]. Əliqulu Qəmküsar X.X.Səbribəyzadənin qadın haqlarına qarşı olan mövqeyini belə tənqid edirdi:

"Yaxşı təsvir elə öz rəyin ilə Quranı,
Çadra, çarşafa bük, dustaq elə nisvani (qadın-Ə.F.),
Qoyma getsin qabağa milləti qaytar ani" [3].

M.Ə.Sabirin hicvlə yazdığı –

"Övrətlərə tədrisi-kitabət yeni çıxdı,
İslama xələl qatdı bu bidət, yeni çıxdı" [8, s.38]

şerini misal çəkən M.B.Məhəmmədzadə qadın azadlığına, qadınların dünyəvi təhsil almasına qarşı çıxanları tənqid edir, görkəmli xeyriyyəçi H.Z.Tağıyevin ilk dəfə müsəlman qız məktəbi açmasını alqışlayırdı [8, s.34-35].

M.B.Məhəmmədzadə Azərbaycan ədəbiyyatından nümunə verdiyi –
“Bir gün gələcək şəmsi-həqiqət doğacaqdır,
Şərqin bu əsir validəsi hürr olacaqdır”,
şeri ilə buna olan qəti ümidini göstərirdi [8, s.33].

M.B.Məhəmmədzadə AXC-nin öz vətəndaşları arasında varlı – kasıb fərqi qoymadan hamıya bərabər yanaşdığını vurğulayır. Lakin bu ədalətli yanaşma məhz cümhuriyyət qurucularının sayəsində oldu. Çarizm dövründə M.Ə.Sabirin hicv dili ilə yazdığı –
“Pul istənilir, məktəb açılsın füqarəyə...
Kasibləri elmlə ucalandırmaq olarmı?” [8, s.38]
şerini nümunə verən M.B.Məhəmmədzadə bu ayrı-seçkiliyə məhz AXC dövləti dövründə son qoyulduğunu göstərir.

M.B.Məhəmmədzadə H.Cavidin də Rusiya işğalı dövründəki problemlərdən, “Fəqir olan çürüsün!... Həqqü müadələt (haqq-ədalət-Ə.F.) nərədə?” – deyərək ədalətsizlikdən şikayət etdiyini göstərir [8, s.22], onun AXC dövründə reallaşmış olan mütərəqqi ideyalarını nümunə verirdi:
“Böyük, kiçik, qara, ağ, həp xristian, islam,
Bütün bəşər nə hüquq istiyorsa, həp alacaq;
Demək ki, qalmayacaq zülmdən cihanda nişan” [8, s.27].

“Misaqi-Milli bu ruhdan yaranmışdır” deyən [8, s.28] M.B.Məhəmmədzadə çarizm dövründəki milli, dini, sinfi ayrı-seçkiliklərə cümhuriyyət dövründə nəzəri olaraq son qoyulduğunu göstərir. O, yazırdı ki, Müsavat Partiyası torpağı əkinçilərə, zəhmətkeş kəndliyə verməklə, ölkənin taleyini xalqın bütün təbəqələrinin bərabər şəkildə idarə etməsinə şərait yaratmaqla xalqın ümidinə çevrildi. Demokratik cümhuriyyət xalqın Müsavat Partiyasına olan etimadı sayəsində bu amaldan yarandı [8, s.24].

Nəticə

Son olaraq deyə bilərik ki, M.B.Məhəmmədzadə təkcə Azərbaycanın yox, Bütün türk dünyasının problemlərini öz problemi sayır və onların həlli yolunda çalışırdı. O, həm bolşevik ideologiyasına və Rusiya işğalına, həm də işğalçılar tərəfindən Azərbaycan türklərinin ruslaşdırılmasına qarşı idi [11, s.VII]. M.B.Məhəmmədzadənin “Azərbaycan Misaqi-Millisi” əsəri Azərbaycanın müstəqillik ideyasının əsas mahiyyətini və reallaşması yollarını ehtiva edir. M.B.Məhəmmədzadə bu əsərində Azərbaycanın müstəqil dövlət quruculuğuna aparan tarixi inkişaf yolunu, milli özünüdərk və istiqlal mücadiləsinin əsas mərhələ və prinsiplərini, hədəflərini ətraflı təhlil etmişdir. Əsərdə Rusiya işğalı altında olan Azərbaycanın ilk dəfə 1918-ci ildə dövlət quruculuğuna nail olması, 1920-ci ildə Rusiya tərəfindən süqutu, 1917-1920-ci illərdə milli istiqlal uğrunda milli mübarizə, bu mücadilənin hədəf, prinsip və nəticələrini ətraflı şəkildə izah etmişdir. Əsərdə AXC-nin üzləşdiyi problemlər, Sovet Rusiyasının işğalçılıq siyasəti, məğlubiyyətə baxmayaraq azadlıq mübarizəsinin davam etdiyi göstərilmişdir. Bu əsər Azərbaycan xalqının azadlıq ideyasının güclü ifadəsi və milli istiqlal uğrunda apardığı uzun və şərəfli mücadilənin parlaq təcəssümü kimi xarakterizə edilə bilər. M.B.Məhəmmədzadənin “Azərbaycan Misaqi-Millisi: 28 may İstiqlal Bəyannaməsinin təhlili” əsəri Azərbaycanın müstəqillik əldə etməsi və dövlət quruculuğu yolundakı çətin, lakin haqq mübarizəsinin, xalqın istiqlal ideyalarının əks olunduğu mühüm bir əsərdir. Bu əsər Azərbaycan milli hərəkatının tarixi inkişaf xəttini, prinsiplərini və hədəflərini ətraflı işıqlandırır. Təsadüfi deyil ki, M.Ə.Rəsulzadə başda olmaqla azərbaycanlı mühacirlər tərəfindən 1928-ci ildə İstanbulda nəşr olunan “Azəri Türk” məcmuəsində verilmiş “İstiqlal Bəyannaməsi” də məhz M.B.Məhəmmədzadənin əsərinin adına uyğun olaraq “Azərbaycan Misaqi-Millisi” şəklində təqdim edilmişdir [7, s.1]. M.B.Məhəmmədzadə “Azərbaycan Misaqi-Millisi”ni azərbaycanlıların möhtac olduğu həyat proqramı sayırdı [4, s.362; 9, s.53]. Bu müqəddəs prinsipləri daim qorumaq, yaşatmaq və təbliğ etmək AXC qurucularının ölənə qədər inandıqları və ümid etdikləri bir inanc olmuşdur və bu, müstəqil Azərbaycan vətəndaşlarının da əbədi borcu olmalıdır.

Ədəbiyyat

1. Balayev, A. Rəsulzadə: Əlhəzər, ruhaniləri siyasətə qarışdırmayın // Ədalət. – 2012, 11 yanvar. – s.7.
2. Ələkbərli, F. Azərbaycanda milli şüur məsələsi: tarix və cağdaşlıq. – 20 dekabr, 2013. URL: https://modern.az/azerbaycanda-milli-suur-meselesi-tarix-ve-cadasliq/49322
3. Həyatova, S. "Şəlalə" jurnalının nəşri tarixi. – 6 iyun, 2017. URL: https://tehsiljurnali.az/metodika/209-lal-jurnalinin-nr-tarx.html
4. Məhəmmədzadə, M.B. Seçilmiş əsərləri // M.B.Məhəmmədzadə, tərtib ed. N.Cabbarlı. – Bakı: Elm və təhsil, – 2023. - 612 s.
5. Vəzir, M. İlk qadın jurnalist - Şəfiqə xanım Əfəndizadə. – 27 may, 2018. URL: https://teleqraf.com/news/yazarlar/175053.html
6. Asker, A. Mirza Bala Mehmetzadenin Azerbaycan Misaki-Millisi üzerine yorumları // "Azərbaycan əlyazmaları dünya kitabxanalarında" mövzusunda III beynəlxalq elmi-nəzəri konfransın materialları. – Bakı: – 13 iyun, – 2018, – s.12-15.
7. Azerbaycan Misaki-Millisi // – İstanbul: Azeri Türk mecmuası, – 1928. № 9, – s.1.
8.Mehmedzade, M.B. Azerbaycan Misaqi-Millisi: 28 Mayıs İstiqlal Beyannamesinin tahlili / M.B.Mehmedzade. – İstanbul: Necmi-İstanbul matbaası, – 1927. – 51 s. // Milli Azərbaycan Tarixi Muzeyinin Kitabxanasının Nadir kitablar fondu, № 959.
9. Mehmedzade, M.B. Azerbaycan Misaqi-Millisi: 28 Mayıs İstiqlal Beyannamesinin tahlili / M.B.Mehmedzade. – İstanbul: Necmi-İstanbul matbaası, – 1927. – s.52-53 // Milli Azərbaycan Tarixi Muzeyinin Kitabxanasının Sənədli mənbələr fondu (SMF), № 4455.
10.Mehmetzade, M.B. Ermeniler ve İran. – 18 s. URL: https://www.academia.edu/35936406/ERMENİLER_ve_İRAN
11. Mehmetzade, M.B. Milli Azerbaycan hareketi / M.B.Mehmetzade. – Ankara: Azerbaycan Kültür Derneği yayınları, – 1991. – 239 s.
12. Mehraliyeva, S. Azərbaycanın istiqlal mübarizəsi tarixində Mirzə Bala Məhəmmədzadənin rolu // Akademik Tarih ve Düşünce Dergisi, – 2024. № 11 (5), – s.2933-2940.
13. Türkoğlu, İ. Mirza Bala Mehmetzade // TDV İslam Ansiklopedisi, c. Ek-2. – Ankara: Türkiye Diyanet Vakfı yayınları, – 2019. – s.271-272.

Məqalənin redaksiyaya daxilolma tarixi: 08.09.2025

Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 12.09.2025

Məqalənin çapa qəbul olunma tarixi: 29.09.2025